**Məmməd ASLAN**

# *Yaşaya bilmədimsə*

*Elçinə məktub*

*Ağlıma gələnlər başıma gəldi,*
*Ağlıma düşməyən şey gərək mənə.*
*Bir insan oğlundan kar aşmaz oldu,*
*Köməyi dəyməyə dev gərək mənə!*

*Ömür ki, müftədi - dünya ucuzdu,*
*Mən belə düşündüm, ömrüm uduzdu.*
*Dərdimi deməyə dilim acizdi,*
*Ürək parçalayan ney gərək mənə.*

*Bu gündən sabaha səbrim qalmayıb,*
*Üzülübdü, səsim-səmrim qalmayıb.*
*İçində olmağa ömrüm qalmayıb,*
*İçində ölməyə ev gərək mənə.*

*Krım, Alupka kəndi.*
*26 dekabr 1977*

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 20 may.- S. 32.**